**Azərbaycan Respublikası Auditorlar Palatasında 20 yanvar 1990-cı il şəhidlərinin anma gününə həsr edilmiş yığıncaqda İ.Əliyevin**

**ÇIXIŞI**

**Hörmətli mərasim iştirakçıları,**

Bu gün biz Azərbaycanın müstəqilliyi uğrunda canından-qanından keçmiş igid həmvətənlərimizin xatirə gününü, o müdhiş qanlı 20 yanvar gecəsini acı xatirələrlə anmağa toplaşmışıq.

Bizim hamımız demək olar ki, o ağır qanlı faciənin canlı şahidləri olmuşuq. Üstündən 25 ildən artıq bir zaman keçsə də, Azərbaycan xalqı o dəhşətli hadisəni bu günkü kimi xatırlayır və inanıram ki, əsrlər, qərinələr keçəcək, qədirbilən xalqımız öz qəhrəmanlarının əziz xatirəsini ürəklərində yaşadacaq və ölməzliyə qovuşan şəhidlərimizin nahaqdan axıdılan qanını yerdə qoymayacaqlar!

Bəli, o qanlı faciənin minlərlə şahidləri kimi mən də yaxşı xatırlayıram, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirdi. Azadlıq harayını boğmağa yönəlmiş bu insan qırğını öz canını vətən yolunda qurban verənləri cənnətə, Azərbaycanı isə müstəqilliyə qovuşdurdu.

Bir gün ərzində Bakıda 137 nəfər öldürüldü, 700-dək insan yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş bu tarix Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydər uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Vətən öz şəhidlərini heç vaxt unutmayacaq. 20 yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri il ucalır.

Allahın insanlara göndərdiyi müqəddəs «Qurani-Kərim»də buyurulur: «Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz». Şəhidlik ölümlərin ən şərəflisidir. Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı qanı ilə, canı ilə qazanmayan xalq hər vaxt kölə kimi gözüqırpıq, həyəcan içində yaşayır. Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Şəhidlər paytaxtımızın «Dağüstü park» kimi tanınan ünvanını özləri boyda möhtəşəm, əzəmətli, müqəddəs məzara – Şəhidlər xiyabanına çevirdilər. Bu gün Azərbaycanda yaşayan öz vətəninə, xalqına bağlı olan hər kəs unutmamalıdır ki, işğal edilmiş Qarabağ torpaqlarımız – Laçın, Kəlbəcər, Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları düşmən tapdağı altındadır.

Müstəqil Azərbaycanımızın torpaqlarına göz dikən düşmənlər bilməlidirlər ki, xalqımızın igid övladları, qüdrətli milli ordumuz xalqla birlikdə ayağa qalxıb, öz torpaqlarını azad edəcək, müqəddəs şəhidlərin ruhları qarşısında öz vicdan borclarını verməklə millətin yaşamaq hüququ olduğunu sübut edən zəfər marşını çalacaqlar. O günə çox qalmayıb… Və sözlərini xalqımın sadə bir oğlunun poetik misraları ilə bitirmək istəyirəm:

Siz ey Vətən yolunda şirin canından keçib,
İgidliyi, mərdliyi özünə amal seçib,
Ömrün bahar çağında həyatdan erkən köçüb,
Ölümüylə bu yurdu, torpağı yaşadanlar!

* * * * *

Səs verdiniz Vətənin harayına, səsinə,
Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə,
Məzarınız dönübdür ziyarət türbəsinə,
İnanın, and içirik, qanınız alınacaq,
Xatirəniz, ruhunuz həmişə anılacaq!

* * * * *

Bir ata övladından el oğluna döndünüz,
Kim deyər ki, öldünüz, kim deyər ki, söndünüz?!
Gələcək nəsillərə yetəcəkdir ününüz,
Siz bu gün də, sabah da, əsrlərlə sağsınız,
Bu yurdun sinəsində vüqarsınız, dağsınız!

* * * * *

Siz yazdınız millətin tarixini qan ilə,
Sinənizdə yurd saldı yurda atılan güllə,
Məzarınız tutulur min çiçəyə, min gülə,
Tərsiniz çiçək kimi, həmişə baharsınız!
Azərbaycan köksündə əbədi yaşarsınız!